UOT 94(479.24); UOT: 727/479.243 / "94-99"

NAZİM MƏMMƏDOV
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
"Qarabağ müharibələri tarixi və Böyük qayıdış hərəkatı" şöbəsinin
baş elmi işçisi, tarix elmləri doktoru, dosent
mamedov-n@yahoo.com

QUBADLI AZƏRBAYCANIN QƏDİM YAŞAYIŞ MƏSKƏNİDİR

DOI: https://doi.org/10.36719/2708-065X/111/5-11

Qubadlının zəngin təbiəti, heyvanlar və bitkilər aləmi, bulaqları və mağaraları qədim insanların yaşaması üçün olduqca əlverişli idi. Burada qədim insanların izləri qalmış mağaralar vardır. Belə yerlər qədim insanların həm sığınacaq, həm də yaşayış yeri olurdu. Mağaralar insanları yağışdan, küləkdən, soyuqdan, vəhşi heyvanların hücumundan qoruyurdu. İnsanlar ovladıqları heyvanları mağaralarda yeyir, topladıqları bitkilərlə qidalanırdılar.

Açar sözlər: Azərbaycan, Qarabağ, Qubadlı, qədim yaşayış məskəni, mağaralar, məbədlər, körpülər, qalalar.

Giriş. Qədim türk yurdu olan Qubadlı ərazisi çoxsaylı tarixi abidələri və yaşayış məskənləri ilə əhatələnmişdir. Bunların içərisində qədim qəbiristanlıqlar, mağaralar, məbədlər, qalalar, Tağlı körpülər, türbələr var ki, bunlar Qubadlının daha qədim tarixə malik olduğunu sübut edir. Mənbələrdən birində göstərilir ki, "Kiçik Qafqazın cənub-qərbində, Qarabağ yaylasının ətəklərində yerləşən Qubadlı torpağının tarixi çox qədimdir... Qubadlının adı dörd əsr bundan əvvəl yaranmışdır. Qubadlı XVI əsrin sonunda Azərbaycana köçmüş Səlcuq türklərinə mənsub Qubad nəslinin adını daşıyır" [14, s.21]. Qubadlının zəngin və qədim tarixi keçmişi elmi tədqiqatlardan, xüsusilə də mütəmadi arxeoloji qazıntılardan kənarda qalmışdır. Qubadlının qədim tarixi abidələrindən və maddi-mədəniyyət nümunələrindən söhbət açarkən qeydiyyata alınmış yerüstü tikililərin və məişət əşyalarından ibarət tapıntıların təsviri ilə kifayətlənməli oluruq. Şimaldan Xocalı-Gədəbəy mədəniyyəti, şərqdən Quruçay və Köndələnçay mədəniyyətləri, qərbdən Naxçıvan mədəniyyəti, cənubdan Arazın Sağsahil ərazilərindəki zəngin mədəniyyət ocaqları ilə əhatələnməsi Qubadlının qədim tarixi keçmişə malik olduğunu söyləməyə əsas verir. Qubadlı ərazisində (Muradxanlı, Qaracallı və Əliquluuşağı kəndlərinin yaxınlığında) xeyli sayda təbii mağaraların olması onların hələ Paleolit dövründən məskunlaşdığını təsdiq edir. Bərgüşadçayın və Həkərinin axdığı vadilərdə və dağətəyi ərazilərdə bir-birinə yaxın məsafədə yerləşən bu mağaralar özünəməxsus məskən kompleksi təsiri bağışlayır. Azərbaycanda ibtidai insan düşərgələri olan belə mağaralar sonralar əhali tərəfindən müqəddəsləşdirilmişdir. Qubadlıdakı "Ağ kaha" və "Qara kaha" mağaraları belə ziyarətgahlardandır. Gavur dərəsindəki mağara məbədi bu növ memarlıq abidələrinin IV əsrə qədər istifadə olunduğunu göstərir. Bölgədəki qayaüstü təsvirlər e.ə. III-II minilliklərə aid edilir. Burada əks olunmuş ov səhnələri, maral və atların sxematik təsvirləri sakinlərin təsərrüfatında ovçuluğun aparıcı sahə olduğundan xəbər verir [22, s.11].

Qədim yaşayış məskəni olan Qubadlıdakı bütün tarixi qalaların, mağaraların, körpülərin, məbədlərin, məscidlərin erməni vandalları tərəfindən dağıdılması, öz fədakar əməkləri ilə illər boyu qurulan güzəranın tar-mar edilməsi, toplanan ictimai və şəxsi mülkiyyətin işğalçı Ermənistan "ordusu" tərəfindən talan edilməsi, əhalinin dədə-baba yurdundan didərgin düşməsi onlara böyük mənəvi zərbə oldu. Lakin itirilən mülkün, varın sahiblərinin köçkün vəziyyətinə düşməsi Qubadlı rayonu sakinlərinin əzmini qıra bilmədi. Çünki onların güvəndiyi, uzaqgörən və müdrik dövlət başçısı, xalqın taleyinə biganə qalmayan Ümummilli lider Heydər Əliyev vardı. Ağır günlərdə yurd-yuvalarından didərgin düşmüş insanların yanında olduğunu bildirən Ümummilli lider Qubadlı rayonlarının işğalının üçüncü ildönümü ilə əlaqədar həmin bölgələrin ictimaiyyətinin nümayəndələri ilə görüşündə (1996-cı il 7 sentyabr) qubadlılara demişdi. "Qubadlı rayonu, ümumiyyətlə, maldarlıq rayonu idi, amma eyni zamanda orada tütünçülüyü inkişaf etdirdik, həm də üzüm bağları saldıq. Rayonun iqtisadiyyatı nə qədər dəyişdi. Bütün bunlar insanlara yeni evlər, yeni mülklər tikmək, yaşayış şəraitini yaxşılaş-

dırmaq, mədəniyyəti inkişaf etdirmək üçün gözəl şərait yaratdı. Bunlar hamısı indi əldən gedibdir və bu mülkün, bu varın sahibləri qaçqın vəziyyətində respublikanın cürbəcür bölgələrində çadırlarda yaşayırlar. Bu, şübhəsiz ki, sizi də incidir, amma bilin ki, məni də həddən artıq incidir" [15, s.280].

Qubadlı qədim yaşayış məskənidir. Qubadlı ərazisində kəşfiyyat xarakterli ilk qazıntılar XIX əsrin sonlarına təsadüf edir. Hələ 1906-cı ildə rus arxeoloqu A.A.İvanovski Cənubi Qafqazın müxtəlif yerlərində Son Tunc-Erkən Dəmir dövrünə aid qutu qəbirlərin tədqiqi ilə məşğul olmuşdur. Maraqlıdır ki, o, Azərbaycanın digər bölgələrində tapılan qəbir avadanlığının bölgədə aşkar olunmuş qutu qəbirlərin materialları ilə eynilik təşkil etdiyini göstərirdi. Bu eynilik həmin dövrdə (e.ə. II minilliyin sonu – I minilliyin əvvəlləri) Qubadlıda eyni maddi mədəniyyətin – Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığını təsdiq edir. Göyçə gölü hövzəsinin qutu qəbirlərindən tapılan kəllə sümüklərinin tədqiqi nəticəsində A.A.İvanovski buranın sakinlərinin dolixokefal baş quruluşuna malik olduğu qənaətinə gəlmişdir.

Arxiv sənədlərindən birində göstərilir ki, Qubadlının qədim yaşayış məskəni olan Xanlıq kəndi Qarabağ nümayəndəliyinin oturduqları mərkəz olub. Qarabağ xanı öz oğlunu Xanlıq kəndinə, Sarıyataqlı Mustafa xanı isə Sarıyataqdan Gürcülüyə qədər əraziyə nümayəndə seçib.

1944-cü ildə Qubadlıya qısamüddətli səfər zamanı arxeoloq İ.Cəfərzadə və memar İ.Şeblıkin Əliquluuşağı kəndinin ətrafında siklopik tipli üç qala qeydə almışlar. Belə tikililər Xocalı-Gədəbəy mədəniyyəti üçün səciyyəvidir. 1989-cu ildə arxeoloq T.R.Əliyev Həkəri çayı üzərində tikilməsi planlaşdırılan su qovşağının əhatə edəcəyi sahəni nəzərdən keçirərkən, Tunc dövrünə aid "Maltəpəsi" adlı iri bir yaşayış məskəni, bir kurqan, orta əsrlərə aid yaşayış yeri, bir cüt qoç heykəli olan qəbiristanlıq qeydə almışdır. Həmin səfər zamanı Qubadlı rayonunun mərkəzində "Xırman yeri" adlı təpə də, nəzərdən keçirilmişdir. Bu nəhəng təpənin üstündə və yamaclarında dəvəgözü (obsidian) parçalarına və Tunc dövrü üçün səciyyəvi olan gil qab qırıqlarına rast gəlinmişdir. Azərbaycanın məşhur səyyahı Hacı Zeynalabdin Şirvani gəzdiyi yerlərin adlarını kitablarında qeyd edərkən Qubadlı ərazisindən də bir neçə qədim yer adlarını da öz kitabında yazmışdır (Goy qala, Quşçu düzü, Məmər məscidi və s.) [16, s.25].

Ümumiyyətlə, Qubadlı rayonunun ərazisində Son Tunc-İlk Dəmir dövrünə aid aşağıdakı abidələr qeydə alınmışdır: "Xırman yeri" adlı yaşayış məskəni (Qubadlı qəsəbəsi), Koroğlu qalası (Əliquluuşağı kəndi), Qalaça (Əliquluuşağı kəndi), Mal təpəsi (Muradxanlı kəndi).

Onu da qeyd etmək lazımdır ki, Laçın və Kəlbəcər kimi eyni tarixi keçmişə malik olan Qubadlı rayonundakı abidələr də eyni quruluşa malikdir. Qubadlının qədim hissəsində Son Tunc-Erkən Dəmir dövrlərinə aid yaşayış məskənindən tapılmış arxeoloji abidələr, Əliquluuşağı kəndindəki evini dövrə aid 2 qala, Muradxanlı kəndindəki eyni dövrə aid daha bir qala, Əliquluuşağı, Balahəsənli və Zor kəndlərindəki IV əsrə aid sığınacaqlar, Mahmudlu kəndində qədim dövrə aid daha bir sığınacaq, Muradxanlı kəndində V əsrə aid Qalalı qalası, Gavur dərəsində IV əsrə aid mağara və Yazı yaylasında XIV əsrə aid Cavanşir türbəsi, Əliquluuşağı kəndində X əsrə aid Göy qala və XIX əsrə aid məzarlar, Damcılı kəndində XIII-XIV əsrlərə aid məzarlar, Gürcülər kəndində XVIII əsrə aid məzar, XIX əsrə aid Macəra ibadətgah bulaq kompleksi, eyni əsrə aid Dondarlı kəndindəki məscid, Hacıbədəl körpüsü və digərləri Qubadlının qədim mədəni irsinə aid nümunələri idi [1].

Bundan başqa Kəlbəcər və Laçın kimi Qubadlı da Qafqaz Albaniyasının bir hissəsi olmuş, həmçinin Bəşərat, Məzrə və Yuxarı Cibihli kəndlərində Alban ibadətgahları var idi. Qubadlının arxeoloji abidələri, xüsusilə də qəribə görkəmli səkkiz künclü məzarlar XII əsrə aid idi. Dəmirçilər kəndindəki XIII-XIV əsrlərə aid məzarlar da eyni görünüşlü idi. Məşhur ruhanilərdən birinə aid olan bir nömrəli məzar iki pilləli fundament üzərində qurulmuş məbəd kimi tikilmişdi. Abidənin ön hissəsi daha səthi və üfüqi tir və alaqapıdan ibarət idi. Ön hissənin küncləri piramida şəkilli damla tamamlanırdı. Məzarın divarları kəsmə daş üzlüklərlə örtülmüşdü. Daxili kümbəz və xarici dam arasındakı məkan od yandırmaq üçün olan boş kürələrlə doldurulmuşdu. Daxili divarda daş üzərində səthi relyefli naxışlarla bəzədilmiş mehrab var idi. 2 nömrəli məzar ellips formalı günbəzlə örtülmüşdü və çöl hissədən piramida şəkilli dama malik idi. Daxili məkan bir-birinin üzərində yerləşmiş 2 hücrəyə bölünmüşdü. Hündür olmayan sol hücrə sərdabə kimi istifadə edilirdi. Giriş qapısı sadə görünüşdə qurulmuşdu. Məzarın girişi şimaldan idi. Cənub divarda mehrab var idi [2]. Bu abidənin bədii mahiyyəti onun sadə məkan görünüşlü və simmetrik memarlıq proporsiyası ilə bağlıdır.

Qubadlı rayonundakı Türbə qədim tarixi abidələrdəndir. Gürcülü kəndindəki XVIII əsrə aid türbə 8 künclü bina olub üzəri 16 künc dam ilə örtülmüşdü. Bina 7,84 metr hündürlükdə, qeyri bərabər enlikdə olan fəsaddan ibarət olub, əhəngdaşı ilə tikilmişdir. Abidənin düzbucaqlı girişi çöl hissədən fərqli formalı sadə profilli alaqapıya malik idi. Türbənin ətrafı qədim qəbiristanlıqdı. Məzarın içərisində, cənub hissədə bəzədilmiş mehrab var idi. Buradakı baş daşı yeri və giriş qapısının vəziyyəti, qəbrin qiblə istiqamətində olması, türbədəki qəbrin və ətrafdakı qəbiristanlığın müsəlmanlara aid olduğunu göstərirdi [9, s.61].

Bütün bunlarla yanaşı Qubadlı rayonunun Dəmirçilər kəndi ərazisində iki qülləvarı türbə var. Onlardan birincisi dağ çayı Ağa çayın sağ sahilində yerləşir. Türbə planda səkkizbucaqlı formada idi (bir tərəfi 1,9 m). İçəridə qapı gözü qarşısında üzdə kiçik mehrab taxçası quraşdırılmışdı. İç divarlar yaxşı yonulmuş daşlarla üzlənmişdi. Türbənin iç hündürlüyü 4,5 metrdir. Türbənin bütün xana üzləri Elxanilər dövrünün Arazboyu türbələri üçün səciyyəvi olan çiyinli dayaz tağlar şəklində işlənmişdi. Şərq və qərb taxçalarının ortasında kiçik pəncərə gözləri qoyulmuşdu. Qapı, gözü yer səviyyəsindən 1,2 metr yüksəklikdə idi. Türbənin 5 metrə yaxın olan prizmatik korpusu səkkizüzlü piramidalı günbəzlə örtülmüşdü [21, s.10].

Qubadlı rayonundakı ikinci türbə də Arpaçayın sağ sahil yamacının yanında, Dəmirçilər və Dondarlı kəndləri arasındadır. Əlverişli yerinə görə türbə hətta uzaq yerlərdən də yaxşı görünürdü. Onun da planı səkkizbucaqlı formada idi. Tikinti materialı, inşaat texnikası və memarlıq həllinə görə bu abidə birinci türbə ilə eynidir. Yalnız ikinci türbənin ölçüləri bir qədər iri, xarici üzərindəki çiyinli dayaz taxçaların forması isə bir qədər fərqli idi. Bu türbələrin hər ikisi XIII-XIV əsrlərin abidələri hesab edilirdi.

Dondarlı, Məmər, Mahruzlu, Dağtumas və digər kəndlərdə məscidlər, Xələc kəndində XV-XVI əsrlərə aid dini kompleks, Qayalı, Aşağı Xocamsallı, Boyunəkər, Dağtumas və Yusifbəyli kəndlərində məzarlar, Gavur dərəsində mağara ibadətgah (IV), Əliquluuşağı kəndində Göy qala abidələri (V), Dəmirçilər kəndində iki türbə (XIV), Gürcülü kəndində türbə (XVII), Xocamsaxlı kəndində türbə (XVIII), Əliquluuşağı kəndində mağara ibadətgah, Xocamsaxlı kəndində qala, Seytas kəndində Anabat və bır çox əfsanəvi abidələr (Oğlan-qız qayası, Sınıq körpü və digərləri) Qubadlının qədim tarixindən bəhs edir [17].

Digər abidələrlə yanaşı, Qubadlı bölgəsi qalaların sayına görə fərqlənir. Qubadlıda qalalar daha çoxdur. Onlardan biri Qalalı qəsri Əliquluuşağı kəndində idi. Qalalı qəsri hər tərəfdən qayalarla əhatə olunmaqla, şimal tərəfdən yol var. Bu yol nəhəng daşlarla qorunur. Siklop hörgü qaya daşlarından tikilmişdi. Bir çox tikililərin izləri qalmaqda idi və qalanın arxa hissəsinin görünüşü sübut edirdi ki, qalalar yalnız müdafiə qurğusu, yəni düşməndən müdafiə məqsədilə istifadə edilməyib, həm də yerli sakinlərin daimi yaşayış məskəni olub.

Başqa bir qala Aşağı Xocamsaxlı kəndində yerləşir. Onun quruluş formasına görə IX-XII əsrlərə aid olduğu güman edilirdi, lakin burada Tunc və Orta əsrlər dövrünə aid çoxlu sayda saxsı qablar tapılması sübut edirdi ki, qədim dövrlərdən orta əsrlərədək bu ərazi yaşayış məskəni olmuşdur. Təpələr üzərində tikilmiş təbii istehkama bənzəyən qala şimal, cənub və qərbdən qayalarla müdafiə olunurdu. Bir qədər zəif olan cənub hissə yarım-dairəvi bürcləri olan 3 qala ilə müdafiə olunurdu. Qala yerli daşlardan tikilmişdi. Qala divarlarından başqa burada sığınacağa bənzər tikilinin qalıqları da var idi [19].

Onu da qeyd etməyimiz yerinə düşərdi ki, Qubadlı ərazisində vaxt ilə müdafiə məqsədi ilə tikilmiş tarixi keçmişi özündə əks etdirən gözətçi qalalar vardır. Çayzəmi dağının hündür yerində Qalacıq (Gözətçi qala), Xocamsaxlı ərazisində Qalacıq (Gözətçi qala), Qaralar kəndindəki istehkam qala, Əliquluuşağı kəndində üzbəüz iki istehkam qala, Göyərcik kəndindəki Qalacıq, Əyin səngərinin hündür yerində qalacıq yeri, Yazı düzündə gözətçi qala, Çardaxlı kəndi ərazisində gözətçi qala və başqaları buna misal ola bilər ki, bütün bunlar Qubadlının qədim tarixə malik olduğuna əyani misaldır [5].

Bütün bunlarla yanaşı Qubad xanın, Hasan xanın, Fətəli xanın, Mustafa xanın, Sultan bəyin, Qorcu bəyin, İsgəndər bəyin, Behbud bəyin, Camal bəyin, Səlim bəyin, Nəbinin, Həcərin, Kişi Tavatın, Qaçaq Lətifin, Dəli Xanların, Əliyanlı Qəbilin və digər yüzlərlə mərd igidlərin adları bir daha təsdiq edir ki, Qubadlı qədim Azəri-Türk yurdudur.

Böyük fransız yazıçısı Aleksandr Düma "Qafqaz səfəri" əsərində yazır: "...Bu xalq vaxtilə mü-

zəffər olmuş, ürəyində indinin özündə də döyüşkən olaraq qalır. Hər hansı azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur. Söz verdi, qurtardı" (Aleksandr Düma bu gözəl sözləri xüsusi olaraq məğrur Qubadlı əhali üçün nəzərdə tutmuşdur – M.N.).

Qubadlının qədim yaşayış məskənlərindən biri də Dondarlı ərazisi olmuşdur. Kənd rayon mərkəzindən 6 kilometr cənubda, Bərgüşad çayının (Bazarçay) sağ sahilində, Bərgüşad silsiləsinin ətəyində yerləşir. Dondarlı toponimi qədim türkdilli dondar tayfasının adı ilə əlaqədardır. Antik mənbələrə görə, dondarlar e.ə. V əsrdən məlumdur. Strabona, Pliniyə, Plutarxa görə, dondarlar Şimalı Qafqazda və Azov dənizi sahillərində yaşamışlar. Azərbaycanda orta əsrlərdə dondar etnonimindən törənən toponimlər çoxdur. "Kitabı-Dədə Qorqud" dastanının qəhrəmanlarından birinin adı Dəli Dondardır [18, s.26]. Əlbəttə bu faktın özü Qubadlının qədim yaşayış məskəni olduğunu təsdiq edir.

Qubadlının qədim yaşayış məskənlərindən biri olan Həkəri kəndi Həkəri çayı sahilində dağətəyi ərazidə yerləşir. Həkəri adına qədim mənbələrdə rast gəlinir. Alban tarixçisi Moisey Kalankatlı Babək hərəkatı ilə əlaqədar 831-ci il hadisələrindən bəhs edərkən Həkəri çayı sahilində Həkəri adlı yerin adını çəkmişdir. Həmin qala hazırda Qalacıq adı ilə məlumdur. İndi Türkiyə və İran ərazisində də Həkərilər yaşayırlar. Bəzi mənbələrdə Həkəri çayının adı Həkəri tayfalarının adı ilə bağlıdır. X-XII əsrlərdə ərəb mənbələrində Həkəri çayı Azad çay kimi göstərilmişdir [12, s.90].

Qubadlı rayonunda qədim Xalac tayfalarının oğuzlardan olması barədə məşhur "Divanü lüğət-üt-türk" əsərinin müəllifi Mahmud Kaşgari də geniş məlumat vermişdir. Müəllif bildirir ki, Makedoniyalı İsgəndərin Orta Asiyaya yürüşü zamanı türklərin xaqanı Şu adlı bir gənc olmuşdur. O, İsgəndərlə vuruşmaq istəməmiş və qoşunlarını geri çəkmişdi. Mahmud Kaşgarlı yazır: "Xaqan Şu ordusu ilə sovuşub gedəndən sonra orada çoluq-çocuğu ilə iyirmi iki nəfər qalmışdı. Bunlar gecə ikən heyvanlarını tapa bilmədikləri üçün gedə bilməmişdilər. Qeyd edək ki, "Dədə Qorqud" dastanında qazı ərənlər formasında işlənir [11, s.26]. Səfəvilərin hakimiyyəti dövründə qazi "əriqət döyüşçüsü, mürid" mənasında işlənirdi. Səfəvilər qazilərə böyük imtiyazlar verirdilər, onlara yaşamaq üçün xüsusi yerlər ayırırdılar. Qızılbaş tayfaları içərisində qazilər (qazian) tayfası da vardır. Qubadlıdakı Qazian adlı toponim bu tayfanın adı ilə bağlıdır.

Həkəri çayının sahilində yerləşən Qubadlının qədim Padar yaşayış məntəqəsi oğuz-səlcuq tayfalarından biri olan padarlıların adı ilə bağlıdır. Padarlar Elxanilər (Hülakülər) dövründə XIII əsrdə Azərbaycana Orta Asiyadan gəlmişlər. Təxminən 8 əsr bundan əvvəl İran səltənəti monqolların əlində olan vaxt onlar hakimiyyəti qoruyub saxlamaq üçün Türküstandan 200 min ailəni, ağ hun tayfasına mənsub olan qayı türklərini İrana və Azərbaycana köçürmüşlər. Həmin qayı türklərinin tərkibində qacar, əfşar, çobanı, ustac, callı qəbilələri ilə birlikdə padar ailələri də olmuşdur. Sonralar padarlar başqa ərazilərə də köçüb çoxlu kəndlər bina etmişlər. Padarların mənşəyi oğuz tayfaları ilə bağlıdır. Bəzi alimlərə görə (akademik İ.M.Meşşannikov və başqaları) padar oykonimi e.ə.VIII əsrdə Urartu kitabələrində adı çəkilən Patari oykonimi də əlaqədardır [3].

Özünün qədimliyi ilə seçilən Tatar kəndi Qubadlıda, Qarabağ silsiləsində dağətəyi ərazidə yerləşir. Toponim özündə türk tayfaları olan tatarların adını əks etdirir. Erkən orta əsr abidələrinə aid Orxon-Yenisey kitabələrində də tatarların adı çəkilir. Tatar etnonimi ilk dəfə VI-IX əsrlərdə Baykal gölündən cənub-şərqdə köçəri həyat sürən monqol tayfaları arasında meydana gəlmişdir. XIII əsrdə monqol işğalları dövründə tatarların adı avropalılara da məlum oldu. XIII əsrin 30-cu illərindən monqol işğalları zamanı Azərbaycana gəlmiş tatarların bir qismi sonralar burada məskunlaşdılar. Tatar tayfası monqol işğallarında iştirak etmişlər. Monqol tarixi tədqiqatçısı Rəşidəddin monqol yürüşlərində iştirak edən tayfalar sırasında tatarların da adını çəkir.

Qubadlının Yazı düzündə kiçik bir təpənin üstündə qədim bir qəbiristanlıq var. Bu qəbiristanlığın ortasında İkinci Dünya müharibəsi dövrünədək hündür bir türbə olduğunu yaşlı əhali xatırlayır. Bu türbəyə el arasında Cavanşir Ata günbəzi deyilirdi. Günbəz müharibə dövründə hərbi geyimli adamlar tərəfindən guya yaxınlıqda qovulmuş geodeziya nişanına mane olduğuna görə dağıdılmışdır. Camaat arasında gəzən rəvayətə görə, Cavanşir Ata türbəsi və onun ətrafındakı qəbiristanlıq ərəblərin o ərazilərini işğal edərkən yerli əhalinin qəhrəmanlığını əks etdirən xatirə abidəsi kimi tikdirilmişdir [20, s.71].

Qaralar kəndinə yaxın yerdə Həkəri və Bərgüşad çayının qovşağında yerləşir. Qalaya yol Həkəri çayının alt hissəsi ilə keçirmiş. Qalanın tam ortasından qalanın içərisinə doğru pilləkənlər olmuşdur.

Qala tamamilə yandırılmış, məhv edilmişdir. Qaladan baxanda bütün ətraf kəndlər, hətta İran ərazisində olan bütün kəndlər görünür. Qala gözətçi, müşahidə məqsədi ilə tikilmişdir. Dövrümüzə gəlib çatan məlumatlara görə, Babəkin müdafiə istehkamlarından biri də burada yerləşmişdi. Babəkin xilafətin sərkərdəsinə əsir düşməzdən qabaq Qubadlıdakı Hindiverd qalasına gəlməsi bildirilir.

Qubadlı rayonu ərazisində qədim albanların yaşadığını sübuta yetirən maddi-mədəniyyət nümunələri vardı. Belə ki, Qubadlı rayonunun Yuxarı Cibikli, Məzrə kəndlərində qədim alban kilsələrinin binaları işğala qədər qalırdı. Amuduq kəndinin yuxarı hissəsində yüksək çıxılmaz sıldırım təpə üzərində kilsə tipli qəbirüstü abidə var idi. Bu abidə yaxınlığında sal qaya üzərində azca su tutan çökəkdə həmişə su olurdu, hətta təmizlədikdən sonra da buraya yenidən su yığıldığından yerli əhali buranı pir kimi müqəddəs hesab edirdi [4].

Qubadlı rayon ərazisində olan Gavır dərəsi, Qavır qalası, Kavır yurdu, Gavır kahası kimi qədim yer adları F.Sumerin "qeyd"lərində öz əksini tapmışdır. Bu adlar Oğuz və Qıpçaqlarla əlaqələndirilir. Oğuzların özlərinə düşmən saydıqları kafirlərin adları da Türk mənşəlidir: Dəmir yaylı Qıpçaq Məlik, Qara Arslan, Qara Təkur və digərləri. Bütün bunlar F.Rəşadəddinin "Oğuznamə"sində də eyni şəkildə qeyd edilmişdir. Özünün Rəşadəddin "Oğuznaməsi" ilə türk aləminə əbədi bir abidə bəxş etmişdir. Müəllif, həmin əsərində Oğuzların tarixi yerləri, oğuz tayfa adlarının mənaları, inancları haqqında geniş məlumat vermişdir. "Oğuznaməı"dəki saysız-hesabsız yer adları elm üçün, araşdırmalar üçün çox faydalıdır. Məsələn: Qubadlı rayonunun ərazisində olan Arançay (Həkəri), Aslan düzü (Məmər), Gavır dərəsi (Məmər), Qanlıca (Zəngəzur), Quqarcik (Göyərcik), Anabat (Cibikli), Aladin (Tatar) və digərləri bu qəbildəndir [23, s.32].

Bütün bunlarla yanaşı qədim yazı nümunələrimizdən biri sayılan "Kitabi-Dədə Qorqud" dastanında da yuxarıda adları qeyd olunan qədim yer adları, həmin dastanın onomistikası ilə səsləşən coğrafi adlar Qubadlı rayonunun ərazisində bu gün də yaşamaqdadır. Göyərcik, Göyərəbbas, Göyyal, Göy təpə. Bu adlara digər türk ellərində də rast gəlmək mümkündür [8, s.80].

Maraqlıdır ki, Köyər etnoniminə formaca oxşar müxtəlif sözlərlə bağlı gürcü alimləri də müxtəlif yazılarla çıxış ediblər. Ancaq Gürcü alimləri həmin qədim yaşayış məskənini türklərin yaşadığı coğrafi ərazi kimi adlanmışdır. Ümumiyyətlə, Göyər Quqar toponiminin türk mənşəli olması barədə ermənilər susurlar. Ancaq imtina da edə bilmirlər [7, s.40]. Çünki həmin oykonimin adı çox qədimdir və həm də Türklərin yaşadığı coğrafi ərazilərdə əks olunmuşdur. Ermənilərin sayıqladığı fikirlər, əlbəttə, əsassız fərziyyələrdən başqa bir şey deyildir. Göyərcik toponimi yalnız türk dilləri üçün xarakterikdir.

Qubadlı rayonunda Əliquluuşağı kəndində orta əsrlərə aid Qalalı adlı müdafiə qalası var idi. Qalanın tikinti qalıqları son zamanlara qədər qalmışdı. Qalanın kənarında yaşayış məskənlərinin qalıqları olan "Qan qışlaq", "Ulu qışlaq" da yerləşir. Həmin ərazidən böyük küplərlə bərabər qəbirlərdən bəzək əşyaları çıxmışdı (Şirəli muncuqlar, şirəli qablar). Hətta yuxarıda sözügedən ərazidə mərtəbəli qəbirlərə də rast gəlinmişdi [21, s.84].

Qubadlı rayonunun Göyərcik kəndi ərazisində Quşçu düzündə Quşçu İmamzadə abidəsi yerləşir. Onuncu İmam Əliyən Nağının övladlarının dəfn olduğu yer ehtimal edilir. Həmin ərazidə 1424-cü ilə aid digər abidələr də var. Təkcə Qubadlı rayonunun əhalisi yox, digər rayonlar və müxtəlif respublikadan gələn insanlar Quşçu İmamzadəsini ziyarət edirdilər. Ziyarətgaha yığılan vəsait xəstələrə və kasıblara paylanarmış.

Qubadlı rayonunun Müskanlı, Dondarlı kəndlərində, Qazan dərə, Qazanyal əraziləri mövcuddur. Biz Qazan adına Musa Kalankatlının "Albaniya tarixi" əsərində rast gəlirik. Eramızın əvvəlindən xəbər verən "Alban tarixi" əsərindən görünür ki, Qazan xanın Qubadlı zonası ilə birbaşa əlaqəsi olmuşdur. Onu da qeyd edək ki, Zəngilan, Qubadlı rayonlarında bu adda 5-dən artıq yer-yurd adları mövcuddur. Deməli, Qazanla əlaqədar 2 mühüm fakt bir-birini təsdiqləyir [6, s.70]. Əvvəla, alban tarixində Qazanın bu ərazilərə gəlməsini sübut edir. İkinci, bölgədəki Qazangəl dağı tam şəkildə Qazanın bu ərazidə olmasına işarədir [13, s.18].

Qubadlı rayonunun Dondarlı kəndində 1732-ci ildə Nadir şah tərəfindən inşa etdirilmiş məscid var. Həmin vaxt Şirvandan Zəngəzura gələn Nadir şah tikdirdiyi bu məsciddə ibadət etmişdir. 1916-cı ilə kimi həmin məscid fəaliyyətini davam etdirmişdir. Qədim tarixə malik olan Dondarlı məscidi 1993-cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş və dağıdılmışdır.

Qubadlı rayonunun Dəmirçilər kəndində XIV əsrə aid olan iki türbə vardır. Türbələrin daxili gözəlliyi ilə yanaşı, xarici görünüşü də diqqəti cəlb edirdi. Onun üzərində sanki at ayaqlarının izləri həkk olunmuşdur. Bu tarixi abidələr 31 avqust 1993-cü ilə qədər olduğu kimi qorunub saxlanmışdı.

Bütün bunlarla yanaşı Qubadlı rayonunun Gürcülü kəndi yaxınlığında səkkiz bucaqlı tam salamat qalmış qədim türbə vardı. Türbənin ətrafı qədim qəbiristanlıqdır. Giriş qapısı ilə üzbəüz divarda olan çökək hissə başdaşı formasındadır. Başdaşının yeri və giriş qapısının vəziyyəti, buradakı qəbirin qiblə istiqamətində olması türbədəki qəbrin və ətrafdakı qəbiristanlığın müsəlmanlara aid olduğunu göstərir. Türbə qədim tarixi memarlıq abidəsi kimi işğala qədər qorunmuşdur [8, s.46].

Nəticə: Beləliklə, apardığımız tədqiqatlar Qubadlının qədim insanın meydana gəlməsi formalaşmasını sübut edən zəngin elmi məlumatlar və maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Qubadlıdakı təbii mağaralar, iqlim şəraiti, meşəliklər və heyvanlar aləmi ərazidə qədimdən yaşayışın mövcudluğunu şərtləndirən amillər idi. Çox təəssüflər olsun ki, Ermənistan silahlı birləşmələri Qubadlını işğal etmiş və burada qədimliyi, türkçülüyü sübut edən nə varsa dağıdılmış yandırılmış və ya qarət edilmişdir. Qubadlı rayonunun işğalını təəssüf hissi ilə qarşılayan Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının bu bölgəsinə və buranın sakinlərinə münasibətini belə ifadə edirdi: "O torpaqlar əməksevər insanların qeyrət, bərəkət ünvanı idi. Qubadlılar Qarabağa, Laçına, Kəlbəcərə Ermənistandan gələn yolun üstündə möhtəşəm qala kimi dayanmışdılar. Onun işğalından da bərk sarsıldım" [15, s.280]. Sevindirici hal ondan ibarətdir ki, bu gün Qubadlı rayonu işğaldan azad edilmişdir və burada dinamik quruculuq və bərpa prosesi sürətlə davam edir. Artıq Qubadlı camaatı öz doğma yurdlarına qayıdırlar.

ƏDƏBİYYAT

1. ARDA. F.379, s.1, i.2483, v.7.
2. ARDA. F.970, s.1, i.253, v.16.
3. ARPİİİSSA. F.62, s.1, i.42 v.9.
4. ARPİİİSSA. F.62, s.16, i.84 v.6.
5. ARPİİİSSA. F.62, s.2, i.270 v.10.
6. Avşarova İ., Pirquliyeva Q. Qafqaz arxeologiyası. Bakı, 2010.
7. Azərbaycan arxeologiyası (altı cilddə). I cild. Daş dövrü. Bakı, 2008.
8. Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü. Bakı, 2001.
9. Azərbaycan tarixi (yeddi cilddə). Birinci cild. (ən qədimdən – b.e. III əsri). Bakı, 1998.
10. Алиев В.Г. Кувшинные погребения античного периода в г. Нахичеван // Изв. АН Азерб. ССР, серия истории, философии и права, 1976, №1.
11. Алиев И. О первых племенных союзах на территории Азербайджана. Баку, 1959.
12. Алиев И. Очерк истории Атропатены. Баку, 1989.
13. Göyüşov R. Arxeologiya və din. Bakı, 1965.
14. Coğrafi adlar. "Azərnəşr", 1982, s.21.
15. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, s.280.
16. Əliyev T.R. Azərbaycanın cənub-qərb bölgəsinin arxeoloji tədqiqinə dair // Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2003, №1.
17. Джафарзаде И., Щеблыкин И. Губадлинская экспедиция (IX. 1944). Научный Архив Институт Истории (НАИИ) АН Азербайджана, ф.1, оп.2.
18. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə (tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S.M.Qaşqay). Bakı, 2006.
19. Rəsuloğlu T. Zəngilandan təsadüfi tapıntılar / Azərbaycan arxeologiyası və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1992.
20. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, 2000.
21. Ивановский А.А. По Закавказью. Археологические наблюдения и исследования 1893, 1894 и 1896 гг. // Материалы по археологии Кавказа. Выпуск VI. Москва, 1911.
22. Mahmudov Y., İsaqov M. Qubadlı: Qədim Azərbaycan torpağı, Zəngəzurun qapısı. Bakı, "Turxan",

2013, 424 s.
23. Очерки по древней истории Азербайджана. Баку, 1956.

НАЗИМ МАМЕДОВ
Старший научный сотрудник отдела
«Истории Карабахский войн и Движения Великого Возвращения»
Института Истории и Этнологии и имени А.А.Бакиханова НАНА,
доктор исторических наук, доцент

ГУБАДЛЫ – ДРЕВНЕЕ НАСЕЛЕНЬЕ В АЗЕРБАЙДЖАН

Богатая природа Губадлы, животный и растительный мир, источник и пещеры были очень подходящими для проживания здесь деревнях людей. В Губадлинского района есть пещеры в которых сохранились седы пребывания деревнях людей. Такие места были одновременно убежищами и местами проживания деревнях людей. Пещеры зашишали людей от холода и нерадений диких животных, а пищу собранную в этих пещерах, люди употребляли пищу.

Ключевые слова: Азербайджан, Гарабаг, Кубадлы, деревний, жилище, песцеры, храмы, мосты, гробницы, замки.

NAZIM MAMMADOV
Senior Researcher of the Departament of
"History of the Karabakh Wars and the Great Return Movement"
of the Institute of History and Ethnology named after A.A.Bakikhanov of the ANAS,
Doctor of Historical Sciences, Associate Professor

GUBADLI IS AN ANCIENT SETTLEMENT IN AZERBAIJAN

The rich nature of Gubadli, its fauna and flora springs and caves were very favorable for ancient people to live here. There are caves in the territory of Gubadli with traces of ancient people. Such places were both shelters and places of residence for ancient people. Coves protected people from the cold and attacks by wild animals, and people ate the food they collected in these caves.

Keywords: Azerbaijan, Karabakh, Gubadli, ancient settlement, caves, temples, brigs, tombs, castles.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Mais Əmrahov, t.e.d. Qabil Əliyev.